


## Turan UĞUR

**BİR ŞAİR VAR**
(Əhməd Cavada)

Bir şair var –
məzarı məchuldur,
uyuyur qəlbimizdə,
bir şair var –
amalı məlumdur,
işarır beynimizdə,
bir şair var –
yurddaşdır o nə desə,
bir şair var –
sirdaşdır o hər kəsə.
Bir şair var –
– əməliylə cavidanlıq qazanmış,
o mübarək himnimizin sözlərini,
nə yaxşı ki,
Əhməd Cavadım yazmış.

**MARİYA**
*(Paulo Koelonun "11 dəqiqə" romanının Mariyasına)*

– Bu nə baxış, bu nə busə, Mariya?!
– Deyəcəkdim sənə nəsə, Mariya!
– Xəyalmısan, gerçəkmisən, Mariya?!
– Sən hamıdan göyçəkmisən, Mariya?!
– Kölgəm səni hər an güdər, Mariya!
– 11 dəqiqə keçib gedər, Mariya!
– Tellərini boynuma sal, Mariya!
– Dodağımdan bir öpüş al, Mariya!
– Bu öpüşlə payız günün yaz olar,
– Gənc ömrünə Turan Uğur yazılar.

**ƏHMƏDİM, CAVADIM**

Sevgimin adı şeir –
Əhmədim! Cavadım,
hər şeirin bir sehr –
Əhmədim! Cavadım.
Bir poeziya çeşməsi-
Əhmədim! Cavadım,
Azadlığın təşnəsi –
Əhmədim! Cavadım.

## MOSKVA GÜNDƏLİYİNDƏN

Burda 100 il yaşamağa nə var ki?
Havasına havalar da çatammaz.
Moskvanın qızlarında nə var ki?
O qədər də ürəklərə yatammaz.
Siqareti siqaretə calayır.
14 yaşda,15 yaşda qocadı.
Əyinlərdə ətəklərin qısası,
Boylarısa iki metrə ucalır.
O boylarda gözüm yoxdu, inan ki,
Mən boyda da Yan Raynis görünür.
Fabrisius küçəsidi qarşıda,
Çempionluğa fransızlar sevinir.
Parklarına dikilibdir gözlərim,
Avtobuslar sağa-sola şütüyür.
Deyirlər ki, oğrun-oğrun Moskva
İşığından Bakıya da ötürür.
Tverskaya – sevişənlər məkanı...
Bu bulvarı sevilənlər sevirlər,
Axşam oldu, itlə dolur küçələr,
"İdi suda, idi suda" – deyirlər.
Metroları yer altında bir şəhər
Gəzdikcə heç bitmək bilmir, İlahi,
Stansiyalar   pətək kimi düzülüb,
Göz önündən getmək bilmir, İlahi.
Moskvanın evləri də sadədir,
Ruslar bilir sadəlikdi gözəllik,
Sən gözələ tərif dedim, Moskva!
Get başına bir az hərlə üzərlik...

## KİYEV GÜNDƏLİYİNDƏN...

Nə düşmüsən bu Kiyevin düzünə?
Yoxsa sənə yaman düşüb havası?
Dost-tanışın heç baxmadın üzünə,
Bircə qızın ümidinə qalası.

İllərimi aya-günə vermişəm,
Kədərini kədərimdən bilmişəm,
Bir qəlbim var, onu sənə vermişəm,
İndən belə nəyim var ki verəsi?

Yollarını bu yollardan salıbdı,
İlhamını o tellərdən alıbdı,
Turan Uğur çoxdan Məcnun olubdu,
Bir gün isə yanıb, Kərəm olası...

## KİYEV GÜNDƏLİYİNDƏN

*(xanımlara)*

Həyatda bir bəhərli,
barınız olammadıq,
Guya yar dedik sizə,
yarınız olammadıq.

Hər şeydən öncə isə
Sən bizimçün anasan.
Elə yaşamısan ki,
Övlad üçün yanasan.

9 min il çalışsaq,
Anlamarıq hikmətin.
Bədəli ödənməz ki
9 aylıq zəhmətin.

Amma səni neçəsi
əsir bilir, qul bilir.
Bunu da özlərinə
ən sərfəli yol bilir.

Nə vaxtsa əl qaldıran,
söyənlər də tapılar.
"Evinin supürgəsi"
deyənlər də tapılar.

Sənə deyilən bu söz
min kələk, min tuzaqmış,
"Kişiyə hər şey olar,
Qadınasa yasaqmış?".

Fikir verməyin buna,
inci olun, dürr olun.
Ən başlıcasıysa
azad olun, hürr olun.

Gözümüz üçun qadın
ünvanlı baxış yeri,
Həsrətini duyanda
min busə, öpüş yeri.

Gündüzlər çəkir bizim
dərdimizin yükünü.
Gecələr ay işığında
qoynumuzun sakini.

Allah veribmi sizə
sevgini, məhəbbəti?
Ara-sıra yazılan
Şeirimin predmeti.